# BALACA ŞAHMATÇILARA LAYİQLİ TÖHFƏ

FİDE ustası Elşad Rzayevin həmmüəllifi olduğu "Taktika və məntiq testləri" kitabı əlimdədir. Elşad Rzayevi şəxsən tanıdığım üçün və ehtiraslı bir şahmatsevər kimi, kitabı diqqətlə oxudum və oxuduqca, həyatda hər şeyin yerini bilən, yüksək mədəniyyətə sahib, səliqəli, məsuliyyətli bir insan olan Elşad Rzayevin həm də öz işinə nə qədər peşəkarcasına yanaşdığının bir daha şahidi oldum.

Ümumiyyətlə, bu gün ölkəmizdə şahmatla bağlı dərc edilən hər bir kitab maraq doğurur və onun müəllifinə "sağ ol" demək borcumuzdur. Söhbət açdığımız bu kitabın isə öz xüsusi özəllikləri var. Kitabda ümumilikdə 21 fəsil üzrə 456 maraqlı diaqram-məsələ verilmişdir. Yuxarıda qeyd etdiyim kimi, Elşad Rzayevi yaxşı tanıyan, onun mədəniyyətinə, məsuliyyətinə və peşəkarlığına bələd olan bir insan kimi, bu diaqramların orijinallığına qətiyyən şübhə etmirəm. Kitabdakı məsələlərin 4 dildə izah edilmiş diaqramlarla verilməsi də onun əsas üstünlüklərindən biridir. Bu fakt, kitabdan ölkəmizdə daha geniş miqyasda istifadə edilməsinə, eyni zamanda, kitabdan digər ölkələrdə də şahmatsevərlərin yararlanmasına şərait yarada bilər.

Diaqramlar səliqə və diqqətlə seçilmiş, çətinlik ardıcıllığına ustalıqla və peşəkarcasına əməl edilmişdir. Şahmatda, müxtəlif fiqurlarla mat kimi, standart hesab edilən məsələlərin ardınca, son 3 fəsildə (2 eyni fiquru taxtadan götürməklə mat, hər hansı bir fiquru taxtadan götürməklə mat, taxta üzərinə fiqur əlavə etməklə mat) verilən qeyri-standart diaqramlar isə, balaca şahmatçılar üçün, kəşfetmənin ləzzətinin duyulması baxımından, xüsusilə maraqlı və cəzbedicidir.

Diaqramları diqqətlə nəzərdən keçidikdən sonra adama elə gəlir ki, buradakı məsələləri həll edə bilən hər kəs özünü artıq şahmatçı hesab edə bilər. Bu, şahmat dünyasına qədəm qoyan hər bir uşağın özünə inam və güvəni baxımından həddindən artıq mühüm məsələdir.

Hesab edirəm ki, bu kitab, evində şahmat lövhəsi olan hər bir balaca şahmatçının kitabxanasında yer almalı bir kitabdır. Ümid edirəm ki, kitab, şahmatı sevən balaca dostlarımıza bu qədim, sirli-sehrli-möcüzəli oyunun əsaslarına yiyələnməkdə, onun gözəlliyini duymaqda və dərk etməkdə, az da olsa, kömək edəcəkdir.

Bu kitabı Elşad Rzayev mənə, özü də bilmədən, mənim doğum günümdə hədiyyə etdi. Bu da, mənim üçün, bu kitabın başqa bir özəlliyi oldu.




Sonda, kitabda çatışmayan bir məqamı qeyd etmək istəyirəm. Adında da qeyd olunduğu kimi, kitabın, yeni başlayan şahmatçılar üçün nəzərdə tutulduğunu nəzərə alsaq, kitabın üzündən başqa heç bir səhifəsində rəngli şəkillərin, illüstrasiyaların olmaması təəssüf doğurur. Ən azı, diaqramların rəngli verilməsi kitabı daha maraqlı və daha oxunaqlı edərdi. Bunun maddi çətinliklərlə bağlı olduğunu istisna etmirəm. Amma, istənilən halda, balaca dostlar üçün nəzərdə tutulmuş hər bir kitabın, hər mənada və mütləq, cəlbedici olması həddindən artıq vacib məsələdir. Ümid edirəm ki, gələcək fəaliyyətlərində müəlliflər bunu mütləq nəzərdə tutacaqlar.

Uğurlar arzulayıram.

**İsaxan İsaxanlı**

*Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru, dosent*

19 fevral 2020-ci il